**UOT 94/479.34**

# AZƏRBAYCAN SSR-də HAKİMİYYƏTDAXİLİ İXTİLAFLAR 1927-ci İLDƏ: TROTSKİZM VƏ MİLLİ TƏMAYÜL

**A.X.XƏLİLOV**
***AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu***
***Xalilov62@inbox.ru***

*1927-ci il Azərbaycanın siyasi tarixinə siyasi ixtilaflar və hakimiyyət uğrunda mübarizə ili kimi daxil olmuşdur. Bu dövrdə Azərbaycanın siyasi həyatı üçün trotskizm və Mahmud Xanbudaqovun rəhbərlik etdiyi milli təmayülün sintezi xarakterik olmuşdur.*

**Açar sözlər:** Trotskizm, milli təmayül, M.Xanbudaqov, Bakı partiya konfransı

1927-ci ildə Sovet Azərbaycanının siyasi elitası daxilində baş verən qarşıdurmalar müxtəlif pərdələr altında, o cümlədən, trotskizm və milli təmayülün sintezi şəklində vüsət almaqda idi.

Bakıda trotskiçi mərkəz 1927-ci ilin yazında yaranmışdı. Həmin vaxt Rostovda işləyən və antistalinçi müxalifətlə («trotskiçi-zinovyevçi antipartiya bloku») sıx əlaqədə olan Sərkis 1927-ci ilin aprelində Bakıya gələrək burada antistalinçi qüvvələri təşkilatlandırmaq və səfərbər etməklə məşğul olmağa başlamışdı. Bakı trotskiçilərinin ilk toplantısı Ə.Məmmədlinskinin mənzilində olmuşdu.

Sərkis Rusiyaya qayıtdıqdan sonra Bakı trotskiçiləri təşkilatlanaraq Ə.Məmmədlinski, Qirşik, Şebarşyov, Krılov və Titovdan ibarət təşəbbüs bürosunu yaratdılar.

26 iyun 1927-ci ildə ÜK(b)P MK və MNK-nın birgə plenumunun L.Trotski və G.Zinovyevin MK üzvlüyündən kənarlaşdırılmasının zəruriliyi barədə qərarı Bakı trotskiçilərini ciddi addımlar atmağa sövq etdi və onlar yaranmış vəziyyətdə necə hərəkət etmək haqqında təlimatlar almaq üçün Sərkislə əlaqəyə girdilər. Təşəbbüs bürosunun üzvü Qirşik Rostova, Sərkisin yanına gedərək ondan L.Trotski-G.Zinovyev platformasını dəstəkləyənlərin imzatoplama kampaniyasına başlamaq haqqında göstərişlər almışdı. Qirşik Bakıya qayıtdıqdan sonra burada imzatoplama kampaniyasına başlanılmış, lakin Ə.Məmmədlinski və onun dostları bu sahədə ciddi uğur qazana bilməmişdilər. Belə ki, Bakıda

L.Trotski-G.Zinovyev platformasına yalnız 44 nəfər imza atmışdı. Bu səbəbdən də, Ə.Məmmədlinski, A.Skublinski, F.Şebarşov tərəfindən irəli sürülən antistalinçi bəyanat «44-lərin bəyanatı» adlandırıldı.

Oqanezov və Qirşik Moskvaya gedərək toplanmış imzaları L.Trotski və G.Zinovyevə təqdim etmiş və onların məktubu ilə geri dönmüşdülər. Oxunduqdan dərhal sonra yandırılması tələb edilən həmin məktubda L.Trotski və G.Zinovyev öz tərəfdarlarını stalinçilərə qarşı effektli mübarizə aparmaq üçün Bakı fəhlələrini öz tərəflərinə cəlb etməyin vacibliyini vurğulayırdılar. Onlar Azərbaycanın «milli təmayülçülərinin» gücündən də yararlanmağı tövsiyə edir və SSRİ-də sosializm quruculuğunun düzgün aparılmaması, sosialist sənayeləşdiriməsində yol verilən səhvlər nəticəsində fəhlə və kəndlilər arasında toqquşmanın labüdlüyü, partiya daxilində demokratik prinsiplərin bərpası, bürokratizm doğuran partiya aparatının islah edilməsi və s. məsələlərlə yanaşı milli məsələnin də qabardılması zərurətini qeyd edirdilər.

Özlərinə daha çox tərəfdarlar toplamaq məqsədi ilə milli məsələni dövriyyəyə buraxan trotskiçilər Zaqafqaziya Federasiyasını Cənub Qafqaz xalqlarının iradəsi əleyhinə yönəlmiş bir qurum kimi dəyərləndirərək onun ləğv edilməsini tələb edirdilər.

Azərbaycan «milli təmayülçüləri» ilə əlaqə yaratmaq məqsədi ilə Ə.Məmmədlinski, Eyyub və Mahmud Xanbudaqovlarla görüşərək onlara işbirliyi təklif etmiş, Xanbudaqovlar isə bu təklif barədə fikirləşmək üçün vaxt istəmişdilər. Həmin vaxt ərzində E.Xanbudaqov L.Trotski və G.Zinovyevlə görüşmək üçün Moskvaya getməyi və məsələni yerindəcə müzakirə etməyi planlaşdırırdı. Lakin 1924-cü ilin yazında baş verənləri, hələ də, unutmayan E.Xanbudaqov gözləmə mövqeyi tutmağa üstünlük verdi. Onun əksinə olaraq M.Xanbudaqov 1927-ci ilin oktyabrında, Sərkis sonuncu dəfə Bakıya gələrkən, onunla görüşmüş və bundan sonra, Ə.Məmmədlinski vasitəsilə, müxalifət sıralarına daxil olmuşdu.

Ə.Məmmədlinski yalnız Bakıda deyil, eyni zamanda, bütün Cənub Qafqazda trotskiçilərin təşkilatlanmasında xüsusi rola malik idi. Təsadüfi deyildi ki, 1927-ci ilin yayında, L.Trotski və G.Zinovyevin emissarı V.Ter-Vahanyan Tiflisdə Cənub Qafqaz üzrə trotskiçi mərkəz yaradan zaman Qirşik və F.Şebarşyovla yanaşı Ə.Məmmədlinskini də həmin mərkəzə daxil etmişdi.

Ə.Məmmədlinski 1927-ci ilin yayında iki dəfə Moskvaya gedərək G.Zinovyevlə şəxsən görüşmüş, Bakıdakı vəziyyət haqqında ona məlumat vermişdi.

Ə.Məmmədlinski və digər Bakı trotskiçilərinin L.Trotski və G.Zinovyevə verdiyi məlumatlar, bir çox hallarda, həqiqətdən uzaq olurdular. 1928-ci ilin əvvəlində Ə.Məmmədlinski AK(b)P Nəzarət Komissiyasına verdiyi ifadədə deyirdi: «Biz Sərkislə Kremlə gedərkən mən ona Bakıdakı əhvali-ruhiyyəni qərəzsiz olaraq təsvir etdim. Fəhlələr arasında bəzi narazılıqların olduğunu qeyd etdim… O zaman Sərkis mənə dedi ki, Qirşik «vojdların» yanında olanda, onlarda Bakını götürməyin mümkünlüyü haqqında təsəvvür yaranıb…» (3).

L.Trotski və G.Zinovyevin əsas emissarı olan Sərkis də öz rəhbərlərini

aldadaraq Bakıda trotskiçilərin çoxsaylı tərəfdarlarının olduğu haqqında məlumatlar yayırdı. Ə.Məmmədlinski deyirdi: «Bir vaxtlar Bakıda şaiyələr dolaşırdı ki, guya Sərkis 800 imza toplayıb. Bu düz deyil. 29 oktyabra qədər cəmi 120 imza toplanmışdı. Mərkəzdən gələn tapşırıq isə cəmi 600 idi…» (3).

Kifayət qədər tərəfdarlar toplamağa nail olmayan Bakı trotskiçiləri ÜK(b)P MK və MNK-nın qarşıdan gələn avqust plenumunda L.Trotski və G.Zinovyevin MK üzvlüyü məsələsinin necə həll ediləcəyini diqqətlə izləyirdilər. L.Trotski və G.Zinovyevin birgə plenumda məğlubiyyəti ehtimalı onları ehtiyatla hərəkət etməyə sövq edir, stalinçilərə qarşı açıq şəkildə çıxış etməkdən çəkindirirdi. Yalnız 16 iyul 1927-ci ildə Bakının Qorodskoy rayonunun partiya fəallarının iclasında A.Skublinski, F.Şebarşyov və D.Sərkisov trotskiçi platforma ilə çıxış etməyə cəsarət etmişdilər.

ÜK(b)P MK və MNK-nın birgə avqust plenumu ərəfəsində, Moskva partiya fəallarının iclasında L.Trotski və G.Zinovyevə çıxış üçün söz verilib-verilməməsi məsələsi səsverməyə çıxarılarkən ikibaşlı oyun oynayan Sərkis həmin məsələnin əleyhinə səs verərək, hər ehtimala qarşı, özünü sığortalamağı lazım bilmişdi.

29 iyul – 9 avqust 1927-ci ildə toplaşan ÜK(b)P MK və MNK-nın birgə plenumunda L.Trotski və G.Zinovyev, gözlənildiyinin əksinə olaraq, MK üzvlüyündən kənarlaşdırılmadı. Onlara ciddi töhmət elan olundu və fraksiyanı buraxmaq tapşırıldı.

L.Trotski və G.Zinovyevin MK üzvlüyündə saxlanılmasını öz qələbələri kimi dəyərləndirən Bakı trotskiçiləri stalinçilərə qarşı daha açıq və qəti mübarizə aparmağın vaxtının yetişdiyini qərara aldılar. Ə.Məmmədlinski və A.Skublinskinin avqust plenumundan dərhal sonra onun qərarı əleyhinə açıq şəkildə çıxış etməsi və Bakı trotskiçilərinin digər addımları məhz qeyd olunan amillə bağlı idi.

1927-ci ilin oktyabrında MK partiyanın XV qurultayında müzakirə ediləcək məsələlər üzrə tezisləri və onlar ətrafında ümumpartiya diskussiyasının başlanmasını elan etdi. Diskussiyalar zamanı stalinçilər qələbə qazandılar.

Trotskiçilərə, o cümlədən, onların Bakıdakı tərəfdarlarına qarşı stalinçilərin qəti hücumu da məhz həmin vaxta düşdü. AK(b)P MNK-nın 4 oktyabr 1927-ci il tarixli iclasının qərarı ilə Ə.Məmmədlinski A.Skublinski, F.Şebarşyov, Y.Həsənov, M.Popov, F.Butov, D.Sərkisov, V.Qavrilov, A.Babayev və Yar Məmməd partiya sıralarından kənarlaşdırıldılar.

AK(b)P MNK Rəyasət Heyəti 16 oktyabr 1927-ci il qərarı ilə, o günlərdə, Bakıya gələrək yerli trotskiçilərlə gizli iclaslar keçirən Sərkisi də partiya sıralarından xaric etdi.

28 oktyabr – 6 noyabr 1927-ci ildə olmuş XVII Bakı partiya konfransı Azərbaycanda stalinçilərin müxalifət üzərində qələbəsini tam şəkildə rəsmiləşdirdi.

Stalinçilərin cəzasından yayınmağa nail olmuş bəzi Bakı trotskiçiləri öz əleyhdarlarına müqavimət göstərməyə cəhd edirdilər. Həmin şəxslər sırasında M.Xanbudaqov xüsusilə fərqlənmişdi.

M.Xanbudaqovun konfrans ərəfəsində cəzalandırılan trotskiçilər arasında olmamasının səbəbi onun müxalifətçilər sırasına gec qoşulması ilə əlaqədar olmuşdu. O, 11 oktyabr 1927-ci ildə, Sərkisin təşəbbüsü ilə, partiya sıralarından yenicə xaric edilmiş Ə.Məmmədlinskinin sədrliyi ilə keçirilən gizli iclasda rəsmi olaraq trotskiçilərə qoşulmuşdu. XVII Bakı partiya konfransı ərəfəsində ən aktiv rəhbərləri cəzalandırılmış Bakı trotskiçilərinə liderlik etmək kimi çox çətin bir vəzifə M.Xanbudaqovun üzərinə düşmüşdü. Konfransda öz qətnaməsini bəyan etmək istəyən M.Xanbudaqova uzun müddət söz verilməmişdi. Stalinçi platformanı dəstəkləyənlərdən ibarət çoxluğun bütün təzyiqlərinə tab gətirən M.Xanbudaqov həmin qətnaməni səsləndirə bilmişdi. Lehinə yalnız M.Xanbudaqovun özünün səs verdiyi bu qətnamədə trotskiçilərin irəli sürdüyü müddəalar yer almışdılar. Həmin müddəalar arasında milli məsələyə xüsusi yer verilmişdi. M.Xanbudaqovun qətnaməsində Moskvanın millətləri amirlik prinsipi ilə idarə etməsi, respublikanın partiya və sovet rəhbərliyinə qeyri-azərbaycanlıların təyin edilməsi pislənilir, Zaqafqaziya Federasiyasının yenidən təşkil olunması vacibliyi qeyd edilir, Azərbaycana, xüsusilə, Bakı sənaye rayonuna Rusiyadan və digər respubilkalardan fəhlələrin gətirilməsinin qarşısının alınması zərurəti vurğulanır, partiya, dövlət və hökumət orqanlarının türkləşdirilməsi (azərbaycanlılaşdırılması) və s. tələb edilirdi.

M.Xanbudaqovun Moskvanın hakimmillətçi siyasətinə qarşı yönəlmiş həmin qətnaməsinin tezisləri L.Mirzəyanın mütləq hakim olduğu Azərbaycanın müxtəlif partiya və dövlət təşkilatlarında açıq şəkildə müzakirə olunur, partiyanın mərkəzi mətbu orqanlarında (məs. Kommunist qəzetində) onların təşviqinə imkan yaradılırdı. M.Məmmədzadə «Azərbaycanda köylü hərəkatı» məqaləsində yazırdı: «Mahmud Xanbudaqov müxalifəti» ünvanını daşıyan bu cərəyana o zaman bütün firqə söhbətlərində və mətbuatda fikirlərini sərbəstcə bəyan etməyə müsaidə edilmişdi» (4, 68).

Bütün bunlar onu deməyə əsas verir ki, M.Xanbudaqova «öz ideyalarını» sərbəst şəkildə yaymaq üçün komfort şərait məhz L.Mirzəyan tərəfindən yaradılmışdı.

Respublikanın siyasi həyatında uzun müddət müzakirələrə səbəb olan, XVII Bakı partiya konfransında M.Xanbudaqovun partiya sıralarından kənarlaşdırılmasına səbəb olan həmin qətnamənin əsl müəllifi Sərkis idi. Ə.Məmmədlinski yuxarıda qeyd olunan ifadəsində göstərirdi: «Yeri gəlmişkən, Bakı konfransında Xanbudaqovun guya öz adından oxuduğu müxalifətçi qətnamə Sərkisin əli ilə yazılmışdı» (3).

1927-ci ilin noyabrında ÜK(b)P MK və MNK qərarı ilə L.Trotski və G.Zinovyev partiya sıralarından və MK üzvlüyündən xaric edildilər. Bütün ölkədə stalinçilər trotskiçilərə qarşı hücuma keçərək onlara ağır zərbə vurdular. Bu proseslər, onsuz da, kifayət qədər təşkilatlanmağa macal tapmamış Azərbaycan trotskiçilərini, tədricən, öz fəaliyyətlərinə xitam verməyə məcbur etdi.

1926-1927-ci illərdə trotskiçilər Xanbudaqovlarla yanaşı digər «milli təmayülçüləri», o cümlədən, milli məsələ üzrə «Azərbaycan Stalini» R.Axun-

dovu da öz sıralarına cəlb etməyə çalışırdılar. Bu məqsədlə onlar R.Axundovla uzun müddət danışıqlar aparmış, lakin öz məqsədlərinə nail ola bilməmişdilər. 1926-1927-ci illərdə ən fəal trotskiçilərdən biri olmuş M.Okucavanın 25 sentyabr 1936-cı il tarixli ittiham protokolunda bu barədə deyilirdi. «Bakı məsul işçisi Ruhulla Axundov… 1926-1927-ci illərdə trotskiçi təşkilata daxil olmaq üçün Qirşik və Skublinskinin qrupu ilə danışıqlar aparırdı… Yadımdadır ki, onlar arasında danışıqlar kifayət qədər uzun müddət davam etdi… uzunmüddətli danışıqlar nəticəsində iş alınmadı…» (2, v.10).

Sovet Azərbaycanının siyasi tarixində böhran ili kimi qalan 1927-ci il R.Axundov üçün də izsiz ötüşməmişdi. 1927-ci ilin martında ZÖK-nın A.Nazareyan tərəfindən imzalanmış qərarı ilə R.Axundov kəskin etirazına baxmayaraq respublika Xalq Maarif komissarı vəzifəsinə təyin olundu. Bu, Azərbaycan təhsil sistemində çox mürəkkəb proseslərin cərəyan etdiyi bir dövrə təsadüf etdi. M.Xanbudaqovun «milli təmayülünün» təsiri altına düşən respublikanın təhsil müəssisələrinin müəllim və tələbələri tərəfindən milli məsələ qızğın şəkildə müzakirə edilir, mərkəz və respublika rəhbərliyi qarşısında tələblər irəli sürülürdü. Respublikada milli məsələnin bilicisi hesab edilən R.Axundovu maarif komissarı təyin etməklə mərkəz onun əli ilə Azərbaycan təhsil sistemini vətənpərvər qüvvələrdən təmizləmək fikrində idi. M.Məmmədzadə yazırdı: «Gənc işçi» qəzetinin 74, 75 və 76-cı nüsxəsində (25-26 və 27 sentyabr 1928) keçmişdə babası əsnaf, əmlak sahibi, tacir və s. olmuş, məktəblərdən atılan yüzlərcə tələbənin siyahıları dərc olunmuşdur. 1928-1929-cu tədris ili münasibəti ilə maarif komissarlığına gəlmiş olan Ruhullah keçmişdə ruhani, mülkədar, fabrikant, şəhər və qəzada ərazi, ev, mağaza və dükan sahibi olmuş adamların övladlarının məktəblərə alınmayacağını elan edirdi. Bunu da bir molla oğlu olan Axundov Ruhullah edirdi…» (4, 103-104).

Respublika təhsil sistemini «millətçilərdən» təmizləyən sanitar rolunda çıxış etməklə Azərbaycanın vətənpərvər qüvvələri tərəfindən haqlı tənqidlərə məruz qalan R.Axundov vaxtaşırı mirzəyançıların da hədəfinə tuş gəlirdi. Həmin dövrdə R.Axundov və Mustafa Quliyev arasında mövcud olan gizli və aşkar qarşıdurma bunu deməyə əsas verir. Respublikanın siyasi dairələrində L.Mirzəyanın adamı kimi tanınan, R.Axundovdan əvvəl və sonra Xalq Maarif komissarı vəzifəsini tutan M.Quliyev R.Axundovun təhsil sistemindəki fəaliyyətini, onun kadr siyasətini tənqid edirdi. M.Quliyevin şəxsiqərəzlik motivlərinə əsaslanan həmin çıxış və yazılarının ilhamçısı respublika MK rəhbərliyi idi. Təsadüfi deyildi ki, MK katibi Ə.Qarayev ÜK(b)P XV qurultayındakı çıxışında R.Axundovun rəhbərlik etdiyi Xalq Maarif Komissarlığını xüsusi kəskinliklə tənqid etmişdi: «… bizim aparatlarda oturan xırda-burjua… və qolçamaq ziyalılar öz ideyalarını bu və ya başqa pərdələr altında məhz Xalq Maarif Komissarlığında həyata keçirirlər» (5).

MK Katibliyinin artan təzyiqləri şəraitində işləməyə məcbur olan R.Axundov 1928-ci ilin nobyarında Xalq Maarif Komissarı vəzifəsindən azad edilərək Moskvaya – Qırmızı Professorlar İnstitutuna «təhsil almağa» göndə-

rildi. O, Azərbaycana yalnız mirzəyançılar hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra – 1929-cu ilin yayında qayıtdı və AK(b)P MK katibi təyin olundu.

1927-ci il mirzəyançılar üçün də itkisiz ötüşmədi. ZÖK-nın məlum 27 mart 1927-ci il qərarı ilə L.Mirzəyanın yaxın silahdaşlarından biri olan H.Ağaverdiyev AK(b)P MK katibi vəzifəsindən azad edilərək AXTŞ-nın sədri təyin olundu. ZÖK-nın bu qərarı mirzəyançılar və H.Ağaverdiyevin özü tərəfindən kəskin etirazla qarşılansa da onların bu müqaviməti nəticəsiz qaldı. Belə bir vəziyyətdə yeganə çıxış yolu H.Ağaverdiyevin MK-da boş qalmış yerinə L.Mirzəyanın yaxın ətrafından birinin təyin edilməsinə nail olmaq idi. L.Mirzəyanın fikrincə bu posta ən layiqli namizəd Yusif Qasımov ola bilərdi. AK(b)P MK-nın 1927-ci il noyabr plenumu L.Mirzəyanın bu niyyətini rəsmiləşdirdi: «2) AK(b)P MK Katibliyi təsdiq edilsin: 1) Qarayev Ə. 2) Qasımov Y. 3) Mirzəyan L.» (1, v.106).

MK Katibliyinin bu tərkibi 1929-ci ilin yayında L.Mirzəyan və onun bir sıra yaxın silahdaşlarının Azərbaycan hakimiyyətindən uzaqlaşdırıldığı dövrə qədər dəyişməz qaldı. Lakin artıq 1927-ci ilin ikinci yarısından – 1928-ci ilin əvvəllərindən etibarən mərkəzin mirzəyançılara qarşı olan münasibətində radikal dəyişikliklər baş verməyə başladı. Bu dəyişikliklərə əsas səbəb L.Mirzəyanın 1926-1927-ci illərdə trotskiçi-zinovyevçi qüvvələrlə əməkdaşlıq etməsi, respublikada onların fəaliyyətinə geniş meydan verməsi olmuşdu. Ölkənin siyasi həyatında baş verən növbəti proseslər İ.Stalini L.Mirzəyan və onun komandasına qarşı kəskin addımlar atmağa sövq edirdi.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin İİSSA: f.1, siy.74, iş 53
2. Azərbaycan Respublikası Prezidentinin İİSSA: f.1, siy.122, iş 92
3. Бакинская оппозиция. Показания тов. Мамедлинского в КК АКП (б). Газ. «Бакинский рабочий», Баку, 1928, 3 апреля.
4. Məmmədzadə M.B. Köylü hərəkatı. Lenin milli siyasəti. Bakı: 2007, 144 s.
5. Речь Караева А.Г. на XV съезде ВКП(б). Газ. «Бакинский рабочий», Баку, 1927, 2 декабря.


## БОРЬБА В ПРАВЯЩИХ КРУГАХ АЗЕРБАЙДЖАНСКОЙ ССР В 1927 ГОДУ: ТРОЦКИЗМ И НАЦИОНАЛЬНЫЙ УКЛОН


**А.Х.ХАЛИЛОВ**


### РЕЗЮМЕ


В данной статье исследуется история политической борьбы внутри правящей элиты Азербайджанской ССР в 1927 году, особое внимание уделяется на анализ мотивов и результатов этих конфликтов. Автор отмечает, что целью этих беспринципных и систематических противостояний была политическая власть.



**Ключевые слова:** троцкизм, национальный уклон, М.Ханбудагов, Бакинская партийная конференция

# POLITICAL CONFLICTS IN COMMUNIST ESTABLISHMENT OF THE AZERBAIJAN SSR IN 1927: TROTSKISM AND NATIONALISM

**A.Kh.KHALILOV**

**SUMMARY**

The researched work dedicated to an important period in the history of the Soviet Azerbaijan examines retrospections of political conflicts in communist government of Azerbaijan SSR in 1927 and provides the given analysis of motives and fatal results of these processes.

**Key words:** trotskism, national uklon, M.Khanbudagov, Baku party conference